**AZƏRBAYCAN RESPUBLIKASI SƏHIYYƏ NAZIRLIYI**

**ƏMR**

**№ 18** **28.03.2019-cu il**

**Bakı şəhəri**

**"Gənclərin səhiyyə sahəsində könüllü fəaliyyətə cəlb edilməsi barədə"**

"Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikası Qanununa və Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 sentyabr tarixli 3236 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı"na əsasən gənclər arasında könüllü fəaliyyətin təşkil edilməsi məqsədilə "Azərbaycan Respublikası Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 14.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikası Qanununu rəhbər tutaraq Səhiyyə Nazirliyində könüllü fəaliyyət təşkil edilsin.

2. Könüllü fəaliyyətə cəlb olunan gənclərlə sistemli işin təşkili məqsədilə könüllülərlə iş üzrə koordinatorlar təyin edilsin (əlavə olunur).

3. Koordinatorlara tapşırılsın:

3.1. Səhiyyə Nazirliyinin aparatında, Bakı Şəhər Baş Səhiyyə İdarəsində və Azərbaycan Tibb Universitetində könüllü fəaliyyət üçün müəyyən edilmiş yerlərin say həddi barədə təkliflərini aparatın rəhbərinə təqdim etsinlər;

3.2 bu sahədə fəaliyyətlərini Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə əlaqələndirsinlər.

4. Aparatın rəhbəri Nadir Zeynalova tapşırılsın:

4.1. könüllü fəaliyyətə namizədliyini irəli sürmüş şəxslərin həmin fəaliyyətə yararlılığının müəyyən edilməsini təşkil etsin;

4.2. könüllü fəaliyyətin həyata keçirilməsinə cəlb edilmiş şəxslərlə müqavilə bağlasın;

4.3. könüllü fəaliyyət sahəsində görülmüş işlər barədə rübdə bir dəfə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına məlumatın hazırlanmasını təmin etsin.

5. Səhiyyə Nazirliyinin baş məsləhətçi-mətbuat katibi Pərviz Əbubəkirova tapşırılsın ki, könüllü fəaliyyət sahəsində görülmüş işlər barədə məlumatın nazirliyin elektron saytında yerləşdirilməsi təmin edilsin.

6. Əmrin icrasına nəzarət nazir müavini Rahim Əliyevə həvalə edilsin.

**Nazir** **Oqtay Şirəliyev**

Azərbaycan Respublikası Səhiyyə
Nazirliyinin 28.03.2019-cu il tarixli
18 nömrəli əmrinə
əlavə

**Könüllülərlə iş üzrə koordinatorların**

**SİYAHISI**

| | |
|---|---|
| 1. Təranə Əhmədova | -Səhiyyə Nazirliyinin Kadrlar, elm və təhsil şöbəsinin aparıcı məsləhətçisi, (Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin aparatı və Bakı Şəhər Baş Səhiyyə İdarəsi üzrə) |
| 2. Elşad Novruzov | -Azərbaycan Tibb Universitetinin Dermatovenerologiya kafedrasının dosenti (Azərbaycan Tibb Universiteti və klinikaları üzrə) |